# 2021-ci ilin 1-ci rübü üzrə nəticələr

**İSTEHLAKÇI HÜQUQLARI VƏ VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ**

1-ci rüb ərzində istehlakçıların hüquqlarının qorunması, abonentlərin elektrik və istilik enerjisi, təbii qazla təchizatı və digər məsələlərlə bağlı Agentliyə bilavasitə və Energetika Nazirliyindən 1712 müraciət daxil olub.

Bunlardan

- Elektrik enerjisi təchizatı ilə bağlı 1091 müraciət;
- Təbii qaz təchizatı ilə bağlı 341 müraciət;
- İstilik təchizatı ilə bağlı 22 müraciət;
- 258 müraciət isə digər məsələlərlə bağlı olub.

1712 müraciətdən

- 1082 müraciət Agentlik tərəfindən araşdırılaraq cavablandırılıb (9 müraciət müvafiq qaydada baxılması və tədbir görülməsi üçün aidiyyəti qurumlara göndərilib);
- 3 müraciət Energetika Nazirliyi ilə müştərək icra olunub;
- 429 müraciət hazırda baxılma prosesindədir;
- 198 məlumat xarakterli müraciətdən 50-si qaldırılan problemlərin həlli ilə bağlı təşəkkür məktubu olub.

**ELEKTRİK ENERJİSİ TƏCHİZATI VƏ QAZ TƏCHİZATI**

- Rüb ərzində yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerjitəchizat sxemini dəyişən 34 tikinti obyektinin xarici elektrik enerjisi təchizatı üçün quraşdırılmış elektrik qurğularına istismara buraxılış aktı verilib;
- Müxtəlif tikinti obyektlərinin elektrik qurğularının 49 layihə sənədi ekspertizadan keçirilərək razılaşdırılıb;
- Aşkar olunmuş çatışmazlıq səbəbindən elektrik qurğularına aid 11 layihə sənədinin razılaşdırılmasından imtina olunub;
- İlin ilk 3 ayı ərzində 250 razılaşdırılmış layihəyə əsasən tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismarına icazə verilib;
- 1-ci rübdə qaz təchizatı üçün layihə sənədləri ekspertiza olunmuş və razılaşdırılmış tikinti obyektlərinin sayı 931 olub;
- Aşkar olunmuş çatışmazlıq səbəbindən qaz qurğularına aid 12 layihə sənədinin razılaşdırılmasından imtina olunub;
- Elektrik enerjisi şəbəkəsinə texniki sənədləşdirmə aparılmadan 2 qeyri-qanuni qoşulma faktı aşkar edilib;

- Qazpaylayıcı şəbəkəyə texniki sənədləşdirmə aparılmadan 3 qeyri-qanuni qoşulma faktı aşkar edilib;
- Agentlik tərəfindən 40 inzibati xəta haqqında protokol tərtib edilib və 51 qərar verilib;
- "Azərenerji" ASC və "Azərişıq" ASC-nin nümayəndələrinin iştirakı ilə 16 hesablaşma elektrik sayğacının texniki vəziyyətinə baxış keçirilib.

---

**BÜDCƏDƏN MALİYYƏLƏŞƏN MÜƏSSİSƏLƏRDƏ TEXNİKİ YOXLAMALAR**

---

- Rüb ərzində elektrik qurğularının texniki istismarı, təhlükəsizlik texnikası qaydalarına əməl olunması və elektrik enerjisindən istifadənin vəziyyətinin araşdırılması məqsədi ilə 37 texniki yoxlama aparılıb;
- 1-ci rüb ərzində qazdan səmərəli istifadənin, "Qazdan istifadə Qaydaları"nın və qaz qurğularının etibarlı istismarının, həmçinin digər normativ hüquqi aktların tələblərinə əməl olunmasının vəziyyətinin araşdırılması məqsədi ilə 38 texniki yoxlama aparılıb.

---

**PEŞƏ BİLİKLƏRİNİN YOXLANILMASI**

---

1-ci rübdə Agentliyə müraciət edən 24 müəssisədə elektrik təsərrüfatına cavabdeh 147 şəxsin və təhlükəsizlik texnikası üzrə mühəndisin əməyin mühafizəsi, texniki istismar və texniki təhlükəsizlik qaydaları üzrə peşə bilikləri yoxlanılıb, biliklərin artırılması üçün təkliflər verilib, metodiki yardım göstərilib.

---

**TEXNİKİ ŞURALAR**

---

17 "ASAN xidmət", 2 "ASAN Kommunal" mərkəzi və Xaçmaz KOB evində (Kiçik və orta biznes evləri) fəaliyyət göstərən Texniki Şuralara sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması ilə bağlı 544 müraciət daxil olub. Bütün müraciətlər müsbət həllini tapıb.